  

# İlham Əliyevə gələn zənglər

**Aprelin 3-də və 4-də bir gün ara ilə ABŞ Dövlət katibi Entoni Blinkenin və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Prezident İlham Əliyevə zəng vuraraq, Brüsseldə Ermənistan-Avropa İttifaqı-ABŞ arasında keçirilən 5 aprel görüşünün mahiyyəti, məqsədi barədə, sözün əsl mənasında, hesabat, izahat vermələri Qərb təsisatlarının Azərbaycan Prezidenti ilə birbaşa hesablaşdığını ortaya qoyur. Dünyanın "super-güc"lərinin rəsmi şəxslərinin ardıcıl zənglərinin özü belə göstərir ki, Cənubi Qafqazın lider ölkəsi Azərbaycansız regionda hər hansı məsələnin, problemin öz həllini tapması mümkünsüzdür.**

## Qərb Azərbaycan Prezidenti ilə hesablaşır

İzahat zənglərinin nümayiş etdirdiyi bir başqa gerçəklik isə reallıqları məhz Bakının diktə etməsi, faktiki olaraq gerçək gücün Azərbaycan Prezidenti İlham Əliyev olmasıdır.

### Faktlara əsaslanan cavablar qarşı tərəfi susdurur

Bütün bunları ABŞ Dövlət katibi Entoni Blinkenin və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Prezident İlham Əliyevə zəng vurmalarının fonunda Azərbaycana qarşı təşkilatlanaraq məkrli siyasət həyata keçirmək istəyən qərəzli Qərbin də yaxşı anladığını görürük.

Ümumiyyətlə, ABŞ də, Avropa da, Aİ də regionda gücün Azərbaycan olduğunu yaxşı bilirlər və Azərbaycanla hesablaşırlar. Onlar regionla bağlı atdıqları, planlaşdırdıqları bütün addımları ilə bağlı Bakıya hesabat verirlər. Və hər dəfəsində də Prezident İlham Əliyev onların iç üzlərini, yalanlarını ifşa edir, yanlışlarını üzlərinə deyir. Qərb rəsmiləri Azərbaycana qarşı nə qədər yalan, böhtan dolu ittihamlar səsləndirsələr də, İlham Əliyev onları faktlarla, gətirdiyi təkzibolunmaz dəlillərlə susdurur.

Necə ki aprelin 3-də E. Blikenlə telefon danışığı zamanı dövlət başçısı İlham Əliyev Cənubi Qafqazla bağlı məsələlərdə özünün qırmızı xəttini cızıb, qətiyyətli mövqeyini ortaya qoyub, yalan, böhtan xarakterli iddiaları faktlarla rədd edib.

Dövlətimizin başçısı Qərbdə Azərbaycanın Ermənistana hücum etmək niyyətində olduğu barədə səsləndirilən ittihamların tamamilə əsassız olduğunu vurğulayıb. Prezident İlham Əliyev diqqətə çatdırıb ki, insan hüquqları məsələsini bəhanə edərək Azərbaycanın daxili işlərinə müdaxilə cəhdləri tamamilə qəbuledilməzdir. Dövlət başçısı həmçinin tanınmış jurnalist Culian Assancın məhz jurnalist fəaliyyətinə görə uzun müddət fiziki və mənəvi işgəncələrə məruz qalması məsələsini diqqətə çəkib. C.Assancın ABŞ-yə ekstradisiya edilmək və edam olunmaq məsələsinin müzakirə edildiyini vurğulayıb.

Aprelin 4-də Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Prezident İlham Əliyevə zəngi zamanı da Brüsseldə keçirilən üçtərəfli görüş məsələsi qaldırılıb. Prezident İlham Əliyev ABŞ Dövlət katibi Entoni Blinkenə bu görüşlə bağlı Azərbaycan tərəfinin mövqeyini ifadə edib və regional inklüzivliyin vacibliyini bildirib.

### Sülh prosesinə zərbə

Ermənistan Qərb dəstəkçilərinin təhriki ilə sülhdən yayınaraq siyasi manipulyasiya və hərbi təxribatlarla məşğul olur. Avropa İttifaqının Ermənistandakı getdikcə tərkibi genişləndirilən monitorinq missiyası (əslində, hərbi missiya) Ermənistanın təcavüzkar davranışlarını daha da artırıb. Başda Fransa olmaqla Aİ-yə üzv ölkələr tərəfindən Ermənistanın silahlandırılması bölgədə sülhü təhlükə altında qoyur.

Ermənistan Azərbaycana qarşı ərazi iddiasından hələ də əl çəkməyib, Azərbaycan ərazisi olan bəzi kəndləri qaytarmayıb, sərhədlərin müəyyənləşdirilməsi istiqamətində razılıq əldə edilməyib.

E.Blinken və U.Lyayenin Prezident İlham Əliyevə zəng vuraraq 5 aprel görüşünün ölkəmizin əleyhinə olmadığını əsaslandırmağa çalışmaları da əslində, pərdə arxasında ayrı oyunların getdiyini açıq göstərir.

Neçə müddətdir ki, Azərbaycana qarşı təşkilatlanaraq "səlib yürüşü" həyata keçirən riyakar Qərb yaxşı bilir ki, Ermənistan üzərindən Cənubi Qafqazda bölücü xətlər həyata keçirmək planlarını açıq şəkildə gerçəkləşdirə bilməz. Buna Azərbaycan qətiyyən imkan verməz. Buna görə də həmişə olduğu kimi, üzdə bir söz deyib, əməldə başqa fəaliyyətlə məşğul olmağa çalışırlar.

Lakin Blinkenlə telefon danışığı zamanı Prezident İlham Əliyev də o qənaətdə olduğunu nəzərə çatdırdı ki, ABŞ, Avropa İttifaqı və Ermənistan üçtərəfli görüşünün qeyri-şəffaf hazırlanması və Azərbaycanın haqlı iradlarına baxmayaraq təxirə salınmaması Cənubi Qafqazda sülhə, əməkdaşlığa deyil, ayırıcı xətlərin və nəticə etibarilə gərginliyin yaranmasına gətirib çıxaracaq.

Göründüyü kimi, regionun güc mərkəzi Azərbaycan baş verənlərin fərqindədir və heç zaman ikilistandartlı Qərbin Cənubi Qafqazı qan gölünə çevirmək kimi çirkin məqsədlərinə çatmasına imkan verməyəcək.

Azərbaycanın gücünün və təsirinin, şəxsən Prezident İlham Əliyevin böyük siyasi lider olmasının növbəti göstəricisi olan və regiondan çox-çox uzaqlardan dövlət başçımıza gələn 3-4 aprel zəngləri də bir daha ortaya qoydu ki, Bakının siyasi iradəsinin əksinə bölgədə hər hansı fəaliyyətlərin həyata keçirilməsi mümkün deyil.

Cənubi Qafqazla bağlı gerçəkləşdiriləcək bütün işlər, atılacaq addımlar, həyata keçiriləcək layihələr əvvəlcə Bakı ilə birbaşa Prezident İlham Əliyevlə razılaşdırılmalıdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 6 aprel, № 71.- S.7.